# ÜSTÜN OLAN İNSANLIQ

## *Məlahət Soltanqızının "Xəyanətin bədəli" poeması haqqında*

*(Əvvəli ötən saylarımızda)*

Hər bir insanın taleyində aldanışlar ola bilər. Bir çox hallarda aldanışların qaçılmazlığı da etiraf olunmalıdı. Hələ həyat təcrübəsi az olan, insanların səmimiyyət qılafına bürünmüş davranışlarının mahiyyətinə vara bilməyən bir gəncin şirin dillərə, süni cazibələrə aldanması təbiidir. Amma hər bir şəxs heç olmasa, aldanışların müəyyən mərhələsində vəziyyətdən baş çıxarmağı bacarmalıdır. Gərək hər bir gənc unutmasın ki, müəyyən xətti keçirsə, bu onun üçün faciəli ola bilər.

Məlahət Soltanqızı təkcə şair deyil, həm də pedaqoqdur. Fikir və düşüncələrində həyatın bərkində, boşunda sınaqdan keçməmiş gəncləri ayıq olmağa çağırır. Onlara həyatın ağır sınaqlarından düzgün keçmək üçün mənəvi məsuliyyət hissi aşılamağa çalışır. M.Soltanqızının yaradıcılığında hər bir insanın taleyindən keçən faciəli məqamlar əslində cəmiyyətin özündən gələn fəsadlarla bağlıdır. Bu mənada biz müəllifin danışdığı hekayətlərlə həyatda az rastlaşmamışıq. Ancaq müəllif bu hekayətləri can yanğısı ilə nəzmə çəkir. Bədii fon verir. O çalışır ki, bu hadisələr yaddaşlarda bir həyat dərsi kimi qalsın. Doğrudur, bəzən sarsıdıcı hadisələr insanların düşüncəsinə, mənəviyyatına sərt təsir göstərir. Hətta elə aldanmış adamlar ola bilər ki, belə hekayətləri oxuyanda dərin sarsıntı keçirər. Görünür, elə bu səbəbdən də müəllif hekayətin bəzi məqamlarında əhvalatı danışmağı dayandırır, həyat və cəmiyyət haqqında öz mülahizələrini bildirir. Artıq dəfələrlə qeyd etdiyimiz kimi, belə mülahizələr daha çox dünyaya ünvanlanır. Çünki müəllifin düşüncəsində dünya əsas idarəedici obrazdır. Bütün həyat hadisələrini özündə ehtiva edən obrazdır. Ona görə də müəllif əsas ittiham obyekti kimi dünyanı ön plana çıxarır.

Əsərin qəhrəmanı Şahnabatın düşdüyü durum,- qarşılaşdığı vəziyyət onun taleyinə bir çıxılmazlıq bəxş edir. Sözün həqiqi mənasında əgər humanist yanaşmaq imkanımız varsa, biz Şahnabatın aldanışında onun günahını görmürük. Onun, əgər varsa, günahı tanış olduğu, səmimiyyətinə, vədlərinə inandığı gənclə daha çox bağlıdır.

Görünür, insanlar aldanışlar haqqında nə qədər eşitsələr də, oxusalar da, həyat elə orijinal məqamlarla, elə təkrarsız hadisələrlə insanı qarşılaşdırır ki, hər adam asanlıqla belə vəziyyətdən baş çıxara bilmir.

Şahnabat riyadan kənar, hiyləgərlikdən uzaq, ruhu sağlam bir gəncdir. O, öz varlığından gələn bir səmimiyyətlə cəmiyyətə inanır, əslində təkcə inanmır, həm də cəmiyyətə güvənir. Ona elə gəlir ki, sevib-seçdiyi oğlan həyatın bütün çıxılmazlıqlarında ona mənəvi dayaq olacaq, onu qorumağa çalışacaq.

Ümidlərin puç olduğu bir məqam var ki, orada insan sanki cəmiyyətin sərt üzü ilə qarşılaşır və bu zaman gərəksiz bir varlığa çevrilir. Əslində belə məqamlarda cəmiyyət insana dayaq olmalıdır. Cəmiyyət isə belə məqamlarda sanki yadlaşır, fərdi özündən uzaqlaşdırır. Deməli, hər kəs öz taleyi üçün özü məsuliyyət daşıyır.

Şahnabatın taleyinin belə acınacaqlı bir durumla qaşrılaşması da, təsadüfi deyil. O, məsləhət ala biləcəyi, güvənə biləvəyi insanlardan ayrı düşüb, tənhalaşıb. Daxilində yaşadığı sarsıntıları, mənəvi çıxılmazlıq əzablarını kimsə ilə bölüşmək imkanında deyil, elə ona görə də vəziyyət kəskinləşən kimi özünə qapılır. Cavabı tapa bilmədiyi sualların gətidyiy əzablar qarşısında vurnuxur. Bununla da çıxış yolunu qeyri-insani bir əməldə görür. Müəllif hekayətinin, demək olar ki, ən ağrılı bir məqamına çatır. Şahnabat sevgilisi onu tərk edib gedəndən sonra dünyaya uşaq gətirir. O, heç bir günahı olmayan körpə ilə üzbəüz qalır.

İnsan zərbə aldığı, səbəbsiz yerə hiyləgərliklə qarşılaşdığı məqamlarda hiyləgərə qarşı çox sərt və qəzəbli olur. Bütün varlığı ilə qisas almaq üçün alışıb yanır. Amma əli hara çatacaq, artıq hər şey arxadadır. Sanki dünya qatarı onu kimsəsiz bir dayanacaqda tərk edib gedib. Yaşamağın dəyəri cəmiyyət içərisində görünür, insanların arasında görünür. Amma bu mənəvi tənhalıq səhrasında Şahnabatın həyatı özünə mənasız görünür. Hətta o, öz tənhalığında belə daxilindən gələn qəddarlıq səsini boğa bilmir.

Dünyaya gətirdiyi övladın ağır-acısını ana çəkir. Ana doqquz ay ərzində bətnində övladı böyüdür, onu ərsəyə gətirir. Əslində ana özü elə bir ağacdır ki, onun barı, bəhəri övladıdır. Amma bu övlad artıq Şahnabat üçün düşmən yadigarıdır. O, başqa cür qisas almaq yolu tapa bilmir. Yeganə qisas yolunu körpəni məhv etməkdə görür:

Aldandı Şahnabat şəhərli bir oğlana
O, məsum çöhrəsində kədər yuva bağladı
Günah nədi bilməzdi, yalan nədi bilməzdi
Bu saflığın içində aldandı şirin dilə
Yanağından axıtdı acı yaş gilə-gilə
Dümək dünya dediyin həm hiylə, həm kələkmiş
İnsan var acımazmış, insanlığa ləkəymiş
Atasının ölümü ağrıtmışdı canını
İndi başqa acılar dondurmuşdu qanını
Gəncliyin təravəti onu toruna saldı
Bətnində körpəsiylə ortada təkcə qaldı
Aldandı, yuxu kimi yaşandı bu olanlar
İndi ona inanmaz gendən durub baxanlar
Gizlədi bu halını, kimsəyə söyləmədi
Doğurdu körpəsini, o hamıdan xəbərsiz
Bələdi, bağladı, qoyub çantaya
Səhər dənizə gəldi
Sakit, səssiz ləpələr bir-birini qovurdu
Sabahın soyuğundan o körpəsini çıxardı
Gözlərini qırpmadan canının bir parçasını
O, dənizə tulladı
Əlində boş çantayla dənizdən aralandı.

Axı qeyd etdik ki, bu, hekayətin ən ağrılı məqamıdır. Hətta ən sakit, təmkinli oxucu üçün də sarsıdıcı bir mənzərə göz önündə vahimə yaradır. Şahnabat öz körpəsini dünyaya gətirən kimi ona süd vermir, mayalandırmır, səsinin də çıxmaması üçün ağzını qapayır. Bu sərtlik, bu qəzəb artıq onun varlığını elə sarıb ki, sanki vəhşiləşib, yırtıcıya çevrilib.

Müəllifin bir psixoloji məqamı da diqqətə çəkməsi maraqlıdır. Onun düşüncəsinə görə əgər Şahnabat uşağa heç olmasa bircə anlığa da olsa süd versəydi, onun qorxusunu, ətrini içinə çəksəydi, varlığında analıq hissi oyanırdı. Öz varlığından qopmuş olan parçasını, hissəsini belə asanlıqla pldürmək, məhv etmək fikrindən daşınardı.

Müəllifin təqdim etdiyi mətndən də göründüyü kimi Şahnabatın faciəsinin başlanğıcı onun tənhalığı ilə bağlıdır. Belələri haqqında "özünə qapılmış adamlar" deyirlər, intiharların, özünə qəsdetmənin də kökü belə özünəqapınma ilə çox bağlıdır. İnsan özünə qapılırsa, onu doğmaları müşahidə etməlidir. Əgər özü mənəvi sarsıntıdan çıxmaq imkanında deyilsə, kimsə ona dayaq durmalıdır. Qarşılaşdığı çətinliklərdən onu qorumağın yolu munislikdir, doğmalıqdır. Şahnabat isə gözlərinin qabağında görünən min-min insanların hamısından kənardadır, tək-tənhadır. Uşağı aparıb dənizə atarkən biz onun qəzəbini müşahidə edirik. Onu aldatmış olan mənfur şəxsin özünə olan nifrətini görürük. Bu nifrəti, bu qəzəbi o qətli törədənə qədər varlığında daşıyır. Amma uşağı dənizə atandan sonra geri qayıdarkən hiss edir ki, sanki varlığında sıra dağlar hamısı uçub tökülüb. O, mənəviyyatında bir boşluq görür. Bu boşluqdan yaxa qurtarmaq onun üçün elə də asan deyil.

Şahnabat uçağı dənizə atıb məhv etdikdən sonra geriyə dünyanı görmürmüş kimi qayıdır. İndi onun nəyi düşünməsi, əməlinə verəcəyi qiymətin heç bir dəyəri yoxdur.

Ümumiyyətlə, cinayətlər cinayətkarı həmişə izləyir. Hətta açılmayan cinayətlər belə qara bir kölgə kimi qatili ömrü boyu qarabaqara tərk etmir. Onun yanında olur və Şahnabat məhz belə bir ağır durumdadır. Ən başlıcası, artıq ona heç kim heç nədə kömək edə bilməz. Canlını məhv etmiş olan ajna özü artıq bir daş heykələ bənzəyir, baxmayaraq ki, yeriyir, danışır, ancaq bütün bunların hamısı mənasızdır, əhəmiyyətsizdir. Qəddarlıqla törətdiyi qətlin mənzərəsi daim onun gözlərinin önündədir. Ən pisi də odur ki, o hələ də varlığından, varlığına hakim olmuş nifrətdən, qəzəbdən qurtula bilmir. Müəllif bu acı mənzərəni təsirli, yaddan çıxmayacaq mənzərə ilə yaradır. Şahnabat iki hissin arasındadır. Qəlbinə daş bağlamış bir varlıq kimi körpəsini şərəfinə, qüruruna, ləyaqətinə qurban verir. Bu hisslər onun mərhəmətinə güc gəlir:

Sanki gözü görmürdü
Nizamsız addımlarla o məkanı tərk etdi
Bu qədər adamların, bu boydaca şəhərin
Bu boydaca dünyanın bundan xəbəri yoxdu
Bu ağır cinayətin canisi bir anadır
Doğduğu körpəsinə bir udum süd vermədi
Heç üzünə baxmadı, sinəsinə sıxmadı
Qoxusunu alsaydı, bu faciə olmazdı
Addım-addım qayıdır, yaşadığı məkana
Əl-ayağı boşalmış, kiprikləri yaşarmış
Sanki bir heykəl kimi, cismi daşdan yonulmuş
İşlədiyi cinayət bir körpənin ölümü...
Bətnində bəslədiyi, nifrətlə gözlədiyi
Gərəksiz əşya kimi, gözlərinə baxmadan
Məsum bir yavrunun səsi çıxmasın deyə
Ağzın-burun bağlamış
Öz canından, qanından yaranan bir körpəni
Lazımsız əşya kimi dəzinə tolazlamış
İçindəki sönməyən o çeynənmiş nifrəti
Alndanışdan yaranan bu acı hekayəti
Kimsə duymasın deyə
Öz bağrına daş basmış
Günahsız bir körpəni hirsinəqurban vermiş
Şərəf, qürur, ləyaqət mərhəmətə güc gəlmiş

Görünür, insanın psixoloji mürəkkəbliyi min illər boyu nə qədər yazılsa da, çözülsə də, axıracan açılmır. Yenə də insanın içərisində sirrə çevrilmiş, çözülməsi çətin olan düyünlər var. Hansısa bir məqamda bu düyün insanın varlığında bir fəsad törədir.

Dünya ədəbiyyatında belə epizodlar az deyil, görünür, insan elə hər yerdə insan olaraq qalır və bir-birinə oxşar tərəflər də az deyil. Məlahət Soltanqızının yazdığı bu hekayətin həyat üçün dəyəri çox böyükdür. Burada gənclər üçün dərs götürə biləcəyi məqamlar çoxdur. Hər bir adam özü üçün nadir olan bir hadisə ilə qarşılaşa bilər. Bu zaman necə hərəkət etməlidir, necə davranmalıdır? Buna yalnız hər kəsin özü qərar verə bilər. Amma, əlbəttə, insan müəyyən məqamlarda cəmiyyətin mənəvi dəstəyindən də yararlanmalıdır. Çalışmalıdır ki, həyatın yeni dərsləri ilə qaşrılaşanda daha təcrübəli, daha müdrik insanların yardımından istifadə edə bilsin. Məlahət Soltanqızının poemalarında oxşar motivlər var. Bu motivlərdən biri insanın insana qəddar münasibəti məsələsidir. Müəllif əslində böyük insanlıq amalını yaddaş güzgüsünə gətirir və bunu cəmiyyətə göstərməyə çalışır. O istəyir ki, adamlar, xüsusilə gənclər hər bir vəziyyət üçün hazırlıqlı olsunlar. Onda hər hansı bir çıxılmazlıqda hətta səhv etsə belə, heç bir gənc öldürücü sarsıntıya məruz qala bilməz.

Şahnabata qarşı bizdə, demək olar ki, qərəzli münasibət oyanmır. Doğrudur, ona qarşı qəzəbli ola bilərik. Ancaq düşdüyü durumda onun tənhalığını, kimsəsizliyini nəzərə ala bilsək, bəlkə də onun günahlarının bağışlanması haqqında da düşünə bilərik.

Çox təəssüf ki, bütün hallarda cinayət o qədər ağır, dərd o qədər böyükdür ki, humanizm hissləri axıracan kara gəlmir. Vəziyyət dəyişilmir və biz yenə Şahnabatı qınamalı oluruq.

Bizə elə gəlir ki, müəllif əsil cinayətkar kimi, bağışlanmaz günah sahibi kimi Şahnabatın sevibinandığı gənci cəmiyyətə tanıtmaq istəyir. O istəyir ki, insanlar Şahnabatdan çox hiyləgər, yalançı sevgi daşıyıcısı olan gənci qınasınlar.

Vicdansızlıq təhəri olmayan ölçüdür. Vicdansız adamların əzab çəkməsi də inandırıcı görünmür. Amma Şahnabat hiss edir ki, artıq o, ömrü boyu daşıyacağı dəhşətli əzablarla baş-başa qalacaq.

Ən böyük ittihamı vicdan irəli sürür. Bəli, vicdanın ittihamı çox sərtdir.

*(Davamı var)*